# Mina terroruna qarşı Azərbaycanın mübarizəsində dünya ictimaiyyəti də fəal iştirak etməlidir

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) beynəlxalq qurumlarla, eləcə də xarici ölkələrin ombudsman və milli insan hüquqları institutları ilə əməkdaşlığa xüsusi diqqət göstərir və bu istiqamətdə fəaliyyətimiz ötən ildə də uğurla davam etdirilib.***

***İqlim dəyişmələri və insan hüquqları məsələləri Ombudsmanın diqqət mərkəzində olub. Bu istiqamətdə 2024-cü il 2 oktyabr tarixində Ombudsman təsisatının təşəbbüsü ilə 30-dan çox ölkədən 200-dən çox nümayəndənin iştirakı ilə Ombudsmanların Beynəlxalq Bakı Forumu keçirilib. Forumda iqlim ədaləti, korporativ məsuliyyət, informasiya əlçatanlığı və ətraf mühitə dair insan hüquqları məsələləri müzakirə olunub.***

Forumda milli insan hüquqları institutlarının iqlim dəyişmələri ilə bağlı məsələlərdə rolunun gücləndirilməsinə dair Bakı Bəyannaməsi qəbul edilib. Bundan əlavə, COP29 çərçivəsində Ombudsman təsisatının təşəbbüsü ilə insan hüquqları və iqlim ədaləti mövzusunda müzakirələr təşkil edilib.

Qeyd edim ki, Ombudsman Avropa Uşaq Ombudsmanları Şəbəkəsi və Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi ilə əməkdaşlığı davam etdirib, qanunun aliliyi, uşaq hüquqları və insan hüquqlarının digər sahələri üzrə müzakirələrdə və layihələrdə fəal iştirak edib. Eyni zamanda Ombudsman İslam Əməkdaşlıq Təşkilatının insan hüquqları ilə bağlı tədbirlərində çıxış edərək Ermənistanın ekoloji və humanitar cinayətlərinə dair faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb, bu məsələlərə dair qlobal səviyyədə geniş müzakirələrin aparılması və beynəlxalq dəstəyin artırılması üçün çağırış edib.

2025-ci ildə insan hüquq və azadlıqlarının müdafiəsini daha da gücləndirmək və dayanıqlı inkişafı dəstəkləmək məqsədilə beynəlxalq əməkdaşlığımızı genişləndirməyə davam edirik. Bu istiqamətdə digər ölkələrlə müsbət təcrübə mübadiləsi aparmaq və Ombudsman təsisatları, milli insan hüquqları institutları ilə əlaqələri möhkəmləndirmək əsas prioritetlərimizdən biridir.

Ötən illərdə olduğu kimi, bu il ərzində də bir neçə qurumla anlaşma memorandumunun imzalanması planlaşdırılır. Həmçinin bir sıra Ombudsman təsisatı ilə qarşılıqlı təcrübə səfərlərinin həyata keçirilməsi də nəzərdə tutulur. Eyni zamanda Ermənistandan qovulmuş soydaşlarımızın hüquqlarının müdafiəsi və onların doğma yurdlarına qayıdışının təmin olunması ilə bağlı fəaliyyətimiz bu ildə də davam edəcək.

Beynəlxalq və regional ombudsman şəbəkələri ilə mövcud əməkdaşlığımızı gücləndirərək, bu təşkilatların rəhbərlərini il ərzində ölkəmizə dəvət etməyi və işğaldan azad edilmiş ərazilərə səfərlərini təşkil etməyi nəzərdə tuturuq. Bu səfərlər həmin ərazilərdə sürətlə həyata keçirilən quruculuqla yaxından tanışlıq baxımından mühüm əhəmiyyət daşıyır.

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu çərçivədə bir sıra tədbirlərin təşkili nəzərdə tutulur. 18 İyun - Milli İnsan Hüquqları Günü münasibətilə Bakıda Ombudsmanların Simpoziumunu keçirməyi və bu tədbirə beynəlxalq tərəfdaşlarımızı, müxtəlif ölkələrin ombudsmanlarını və milli insan hüquqları institutlarının rəhbərlərini dəvət etməyi planlaşdırırıq. Simpoziumda aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, eləcə də yerli və xarici media nümayəndələrinin iştirakı gözlənilir. Burada qanunun aliliyi və yaxşı idarəetmənin gücləndirilməsi kimi vacib məsələlər müzakirə ediləcək.

Azərbaycanda Ombudsman təsisatının uşaq hüquqları ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təsisatda Uşaq hüquqlarının müdafiəsi sektoru fəaliyyət göstərir. Həmçinin ötən il Ombudsmanın sərəncamına əsasən təsisatda "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq Qrupu yaradılıb. Bu Qrupun yaradılmasında əsas məqsəd Ombudsmanın "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsidir.

Ombudsman uşaq hüquqlarının müdafiəsi sahəsində şikayətlərə baxılması, monitorinqlərin həyata keçirilməsi, qanunvericiliyin və mövcud vəziyyətin təhlili, təkliflərin irəli sürülməsi, maarifləndirmə və təbliğat işinin aparılması istiqamətlərində fəaliyyətini davam etdirir. Bu sahədə aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, xarici ölkələrin insan hüquqları təsisatları, beynəlxalq təşkilatlarla əməkdaşlığa və uşaqların iştirakının təmin edilməsinə böyük önəm verilir, uşaq hüquqlarının üstün mühafizəsi prinsipi əsas tutulur.




Təsisat tərəfindən mütəmadi olaraq müxtəlif kateqoriyadan olan uşaqlar və onlarla müntəzəm təmasda olan şəxslər üçün tədbirlər təşkil edilir, görüşlər keçirilir. Hər il elan edilən və 20 oktyabr - 20 noyabr tarixlərini əhatə edən "Uşaq Hüquqları Aylığı"nda aidiyyəti qurumlara çağırışlar edilir, uşaq hüquqlarının müdafiəsinə yönəlmiş silsilə tədbirlər həyata keçirilir. Qeyd edim ki, 2024-cü ildə ilk dəfə olaraq təsisat tərəfindən işğaldan azad olunmuş ərazilərimizdə yerləşən təhsil müəssisələrində maarifləndirmə tədbirləri keçirilib.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə, Vətən müharibəsi zamanı və torpaqlarımızın azad edilməsindən sonra, hətta 2021-ci ildə Ermənistanda istehsal olunmaqla ərazilərimizdə basdırılmış çoxsaylı mina və partlamamış hərbi sursatlar hələ də insanların həyat və sağlamlığı üçün ciddi təhlükə mənbəyi olaraq qalır. Baş vermiş mina partlayışları nəticəsində yalnız hərbi qulluqçular deyil, çoxsaylı mülki şəxslər, öz xidməti vəzifələrini və peşə borclarını yerinə yetirmək üçün işğaldan azad edilmiş bölgələrə ezam olunmuş insanlar, o cümlədən media nümayəndələri mina terrorunun qurbanı olurlar. Belə ki, statistik məlumatlara əsasən, 1991-ci ildən indiyə kimi mina qurbanlarının sayı 3400 nəfərdən çoxdur ki, bunların 359-u uşaq, 38-i qadındır. Bu rəqəmlər regionda ədalətli və dayanıqlı sülhün təmin edilməsi yolunda böyük bir maneə olan mina probleminin fundamental insan hüquqlarının kobudcasına pozulmasına səbəb olduğunu əyani şəkildə təsdiq edir.

Dərin təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Ermənistanın mina terroru çoxsaylı insan itkilərinə, ağır xəsarətlərə və minlərlə insanın əlilliyinə səbəb olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı tikinti və bərpa işlərinə ciddi maneə yaradır. Bu isə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışını da ləngidir, bu isə regionda sabitlik və inkişafın təmin olunmasına böyük əngəl törədir. Buna görə də dünya ictimaiyyəti hər kəsin yaşamaq, azadlıq və sərbəst hərəkət etmək, mülkiyyət, təhlükəsiz yaşamaq, sağlam ətraf mühitdə yaşamaq, sağlamlığın qorunması kimi fundamental insan hüquqlarının müdafiəsi naminə azərbaycanlılara qarşı mina terroru ilə mübarizədə fəal iştirak etməlidir. Təqdirəlayiq haldır ki, 2023-cü il martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə minatəmizləmə fəaliyyətinin ölkə Prezidenti tərəfindən 18-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM) kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü irəli sürülüb. Təbii ki, minatəmizləmə fəaliyyətinin 18-ci DİM kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini sürətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin işğaldan azad olunmuş ərazilərində mina təhlükəsinin mövcudluğunu beynəlxalq ictimaiyyətə çatdırır və onları bu məsələyə dair daha fəal mövqe tutmağa çağırırıq. Bu istiqamətdə biz ötən dövr ərzində bir sıra beynəlxalq və regional təşkilatlara, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına Ermənistanın beynəlxalq humanitar hüquq normalarını davamlı olaraq pozması barədə çoxsaylı bəyanatlar, müraciətlər və hesabatlar göndərmişik. Bunlardan biri də mina terroru ilə bağlı tutarlı faktları və minalarla çirkləndirilmiş ərazilərin dəqiq xəritələrinin ölkəmizə təqdim olunmasına dair təcili tədbirlərin görülməsini tələb edən "İşğaldan azad edilmiş ərazilərdə mina problemi" adlı xüsusi hesabatdır. Dəvətimiz əsasında Azərbaycana səfərə gəlmiş müxtəlif beynəlxalq təşkilatların, ombudsman və milli insan hüquqları təsisatlarının nümayəndə heyətləri müstəqil şəkildə apardıqları yerində araşdırmalar zamanı ölkəmizə qarşı törədilmiş müharibə cinayətlərinin şahidi olublar, daha sonra isə həmin faktları təsdiqləyən hesabatlar hazırlayaraq beynəlxalq təşkilatlara təqdim ediblər. Bundan əlavə, Ombudsman təsisatı tərəfindən istər ölkə daxilində, istərsə də xaricdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə, beynəlxalq və regional təşkilatların nümayəndələri ilə görüşlərdə Azərbaycan həqiqətləri, o cümlədən Ermənistanın mina terroru barədə məlumatlar onların diqqətinə çatdırılıb. İnsanların həyat və sağlamlığı üçün son dərəcə əhəmiyyətli olmasına baxmayaraq, bu məsələyə hələ də müsbət bir reaksiya verilməyib.

Minatəmizləmə işlərinin sürətləndirilməsi üçün mina və digər partlamamış hərbi sursatlarla çirkləndirilmiş ərazilərin dəqiq xəritələrinin əldə olunması üzrə beynəlxalq müstəvidə əməkdaşlığın davam etdirilməsi, minadan zərərçəkən şəxslərin hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, pozuntu hallarının qarşısının alınması ombudsman təsisatı olaraq bizim üçün cari ildə də əsas prioritetlərdən biri olacaq.

Başqa vacib bir məsələyə toxunmaq istəyirəm. Belə ki, şəhid ailələrinin, Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, habelə müharibə veteranlarının xüsusi qayğı ilə əhatə olunmaları, onlara göstərilən sosial dəstək mexanizmlərinin daha da gücləndirilməsi prioritet məsələlərdəndir. Həmin şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, tibbi və psixoloji yardımla təmin edilmələri, müvafiq güzəşt və təminatlardan istifadəyə və digər hüquqlarının həyata keçirilməsinə hərtərəfli şəraitin yaradılması məsələləri Ombudsmanın diqqətində saxlanılıb.

**ANAMA tərəfindən təqdim olunan məlumatlar 10 noyabr 2020 - 22 fevral 2025 tarixlərini əhatə edir**

| Minadan zərər çəkənlər | həlak olanlar | xəsarət alanlar |
|---|---|---|
| Mülki şəxslər | 55 nəfər | 144 nəfər |
| Hərbçilər | 15 nəfər | 169 nəfər |
| Cəmi | 70 nəfər | 313 nəfər |

**Ümumi təmizləmə göstəriciləri (Noyabr 2020 - 19 fevral 2025)**

| | |
|---|---|
| Ümumi təmizlənən sahə | 1,857,077,752 $m^2$ və ya 185,707.8 ha |
| Partlamamış hərbi sursat | 123,535 ədəd |
| Piyada əleyhinə mina | 36,123 ədəd |
| Tank əleyhinə mina | 21,490 ədəd |
| Cəmi mina və PHS sayı | 181,148 ədəd |

**İnsidentlərin sayı - 230. Ümumilikdə 1991-ci ildən indiyə kimi 3400 nəfərdən çox şəxs minadan zərər çəkib. Onlardan 359 nəfəri azyaşlı və gənc, 38 nəfəri qadınlardır.**

Həm də bu istiqamətdə Ombudsman təsisatının fəaliyyəti sistemli və operativ şəkildə davam etdirilib. Paytaxt və regionlarda həmin əhali kateqoriyasından olan şəxslərlə görüşlər və qəbullar keçirilib. Onların məşğulluq, səhiyyə, əlillik, reabilitasiya və digər sahələrdə üzləşdikləri problemlərlə bağlı Ombudsmana ünvanladıqları şikayətlərin hər biri ilə əlaqədar səlahiyyətli dövlət qurumları ilə əməkdaşlıqda araşdırmalar aparılıb və nəticədə bir sıra məsələlər öz həllini tapıb. Məlum olduğu kimi, Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli, 10 saylı Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi Qaydaları"na əsasən şəhid ailələrinin qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə etmək hüququ vardır. Həmin Qaydaların 2-ci hissəsində şəhid ailələrinin üzvləri hesab edilən şəxslərin kateqoriyaları müəyyən edilib. Lakin bununla bağlı təcrübədə yaranan bəzi çətinliklər qanunvericilikdə müəyyən əlavə və dəyişikliklərin edilməsi zərurətini yaradır. Belə ki, həmin Qaydaların 2.1.4-cü bəndinə müvafiq olaraq, şəhidin yalnız uşaq evlərində tərbiyə olunan qardaş və bacıları şəhid ailəsinin üzvləri hesab edilirlər. Qaydaların 2-ci hissəsində sadalanan ailə üzvlərinin olmaması halında uşaq evlərində olmasından asılı olmayaraq, şəhidin bacı və qardaşlarının şəhid ailəsinin üzvləri hesab edilməsi ilə bağlı qanunvericiliyə əlavə edilməsi həmin şəxslərin şəhid ailələrinə şamil olunan müvafiq güzəşt və imtiyazlardan istifadə etmələrinə şərait yaradacaq.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, müharibə zamanı xəsarət alan şəxslər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərin əksər hissəsi əlillik təyinatının aparılması zamanı mövcud olan çətinliklərlə bağlı olub. Belə ki, əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı olan müraciətlərdə müvafiq sənədlərin hazırlanması, sistemə əlavə edilməsi, məsələyə baxılmasında süründürməçiliyə yol verilməsi, eləcə də əlilliyin təyin edilməsi şərtlərinin əlverişli olmaması kimi hallar öz əksini tapıb.

Qeyd edim ki, 2020-2024-cü illərdə Ombudsman təsisatının insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bir çox işlər görüldü, Ombudsmana müəyyən səlahiyyətlər verildi və yeniliklər tətbiq olundu. Son illərdə Ombudsman təsisatında insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atılıb.

Vətən müharibəsi və postmüharibə dövründə fəaliyyətin inkişafı, müvafiq dövlət qurumları ilə əlaqələndirmənin səmərəli təşkili məqsədilə 2021-ci ildə Ombudsman Aparatında şəhid ailələri və müharibə veteranları ilə iş sektoru da yaradılıb. Müvafiq struktur bölmənin işi əsas etibarilə şəhid ailələrinin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, habelə müharibə veteranlarının müraciətlərinin hərtərəfli araşdırılması və cavablandırılmasının təmininə, bu şəxslərin üzləşdikləri problemlərin çevik həllinə yönəlib. Ombudsmanın fəaliyyətində səmərəliliyin artırılması üzrə həyata keçirilən tədbirlər çərçivəsində 2025-ci ildə həmin sektorun əsasında şəhid ailələrinin, müharibə iştirakçılarının və miqrantların hüquqlarının müdafiəsi sektoru yaradılmışdır. Bununla da həmin sektorun fəaliyyət istiqamətləri genişləndirilib.

Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq və beynəlxalq insan hüquqları sisteminin "Hər kəs doğulduğu andan fundamental hüquq və azadlıqlara sahibdir" ideyasını rəhbər tutaraq Ombudsman təsisatında Bərabərlik hüququnun təmini sektoru yaradılıb. Müvafiq sektorun əsas məqsədi ölkəmizdə inklüziv cəmiyyətin təşviqi və təminindən ibarətdir.

Ombudsman öz fəaliyyətini Paris Prinsiplərinə uyğun həyata keçirir. Bu fəaliyyətin təkmilləşdirilməsi istiqamətində davamlı addımlar atırıq. Belə ki, son olaraq, 2023-cü ildə Paris Prinsiplərinin mahiyyətindən irəli gələrək, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa 30-dan çox əhəmiyyətli dəyişikliklər edildi.

Həmin dəyişikliklərə əsasən müvafiq Konstitusiya Qanununun təsir dairəsinə düşən subyektlərin əhatəsi genişləndirildi. Belə ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyası təsbit edildi. Bununla yanaşı, Ombudsmanın beynəlxalq əməkdaşlığa dair mandatı ilə bağlı dəqiqləşmələr aparıldı, insan hüquqları sahəsində Dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin monitorinqi və qiymətləndirilməsi üzrə səlahiyyətlər rəsmi olaraq müəyyən olundu. Eyni zamanda şikayətlərə baxılması üzrə səlahiyyətlər genişləndirildi, şikayətlər üzrə yerində araşdırma aparmaq və nəticələrini sənədləşdirməklə bağlı ayrıca səlahiyyət müəyyən edildi, digər dəyişikliklər olundu.

Qeyd etmək lazımdır ki, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə müstəqil monitorinq mexanizmi funksiyasının həyata keçirilməsi məqsədilə Ombudsmanın sərəncamına əsasən, müvafiq sahələr üzrə monitorinq qrupları yaradılmış və artıq həmin qruplar fəaliyyətə başlayıb.

Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş vandalizm aktları nəticəsində tarixi-mədəni və dini abidələrimizin məhv edilməsi, o cümlədən məscidlərin təhqir edilməsi, qəbiristanlıqların dağıdılması insan hüquqlarının və mədəni irsin açıq-aşkar pozulmasıdır. Bu kimi neqativ hallar beynəlxalq hüquq normalarına və xüsusilə də "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına və onun iki Protokoluna ziddir.

Ombudsman təsisatı olaraq, işğaldan azad edilmiş ərazilərə etdiyimiz faktaraşdırıcı səfərlər zamanı topladığımız məlumatlar və apardığımız müşahidələr bu məsələnin beynəlxalq aləmdə daha geniş, hərtərəfli və sistematik şəkildə müzakirə olunmasının zəruriliyini bir daha aydın şəkildə ortaya qoyur. Bu səfərlərdə əldə edilən nəticələr, xüsusən insan hüquqları, mülkiyyət hüquqları və beynəlxalq hüququn prinsipləri baxımından regionda baş verən hadisələrin daha dərindən analiz olunmasını və beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətinin artırılmasını vacib edir. Bununla əlaqədar, həmçinin beynəlxalq təşkilatların və tərəfdaş ölkələrin fəal iştirakının təmin edilməsi də böyük əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində azərbaycanlıların beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlarının pozulması faktlarının araşdırılması məqsədilə Ombudsmanla bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Müstəqil Daimi İnsan Hüquqları Komissiyası (MDİHK) arasında səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Bu çərçivədə İƏT MDİHK-nın nümayəndələri Azərbaycana gələrək iki dəfə faktaraşdırıcı missiya həyata keçiriblər.



Səbinə ƏLİYEVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).

2023-cü ildə reallaşdırılmış ikinci səfərin əsas məqsədi Ermənistan tərəfindən dini-mədəni abidələrin, azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması faktlarının yerində araşdırılması, işğal və raket hücumları nəticəsində zərər çəkmiş azərbaycanlılarla bağlı məlumatların toplanması və nəticələrə əsasən hesabat hazırlayaraq beynəlxalq ictimaiyyətə təqdim edilməsindən ibarət olub.

Səfərin nəticəsi olaraq hazırlanan və beynəlxalq təşkilatlara təqdim olunan hesabatda Ermənistanın beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozması ilə bağlı faktlar və bu məsələyə dair tövsiyələr öz əksini tapıb. Bu hesabat İƏT Xarici İşlər Nazirləri Şurasının 50-ci Zirvə Görüşü çərçivəsində təsdiq edilib və daha sonra İƏT MDİHK-nın rəsmi internet saytında yerləşdirilib.

Bu məqsədlə biz həmin vandalizm aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün BMT, Avropa Şurası, UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirəcəyik. İşğal dövründə törədilmiş insan hüquqları pozuntuları və vandalizm aktlarını əks etdirən sənədlər, foto və videomateriallar əsasında beynəlxalq tədbirlərdə çıxışlar edəcək və media vasitəsilə geniş məlumatlandırma işləri aparacağıq.

Ümid edirəm ki, səlahiyyətlərimiz daxilində görəcəyimiz işlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və onların diqqətinin ölkəmizin üzləşdiyi problemlərin həllinə cəlb edilməsi baxımından əhəmiyyətli olacaq.

Ötən illərdə bəzi xarici ölkələrdən Azərbaycana repatriasiya edilən vətəndaşlarla görüşlər keçirildi, iş aparıldı. Xarici ölkələrdə çətin həyat şəraitində olan vətəndaşlarımızın, o cümlədən repatriantların hüquqlarının müdafiəsi tərəfimizdən daim diqqətdə saxlanılır.

Məlum olduğu kimi, Azərbaycan hökuməti tərəfindən görülən tədbirlər nəticəsində Suriyada saxlanılan vətəndaşlarımızın ölkəyə repatriasiyası həyata keçirilir. Bu qəbildən olan şəxslərin, xüsusilə qadın və uşaqların yaxın qohumları tərəfindən onların ölkəyə qaytarılması və müvafiq yardımın göstərilməsi ilə bağlı Ombudsmana ünvanladıqları müraciətlərdə öz əksini tapmış məsələlərlə əlaqədar aidiyyəti orqanlara sorğular göndərilir, zəruri addımlar atılır.

Ümumilikdə Suriyada qalan vətəndaşlarımızın qaytarılması və onların hüquqlarının təmini istiqamətində zəruri tədbirlərin görülməsi məqsədilə müxtəlif vaxtlarda Nazirlər Kabinetinə, həmçinin digər səlahiyyətli dövlət qurumlarına (Ombudsman) tərəfindən müraciətlər edilib. Bununla yanaşı, müvafiq beynəlxalq təşkilatlarla müzakirələr aparılıb. Qeyd edim ki, Ombudsman və onun nümayəndələri tərəfindən Suriya Ərəb Respublikasından repatriasiya edilmiş Azərbaycan vətəndaşlarından 57-si uşaq, 17-si qadın olmaqla 74 nəfərlə görüş keçirilib, onların hüquqlarının təmini vəziyyəti öyrənilib. 2024-cü ildə də bu istiqamətdə fəaliyyət davam edib, ölkəyə gətirilmiş 31 repatriantla görüşlər keçirilib, onların yerləşdirildikləri müəssisədə həyata keçirilmiş reabilitasiya tədbirləri barədə məlumatlar əldə edilib, hüquqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər görülüb. Bu görüşlər zamanı onların ümumi və psixoloji durumu qiymətləndirilib, problemləri və ehtiyacları öyrənilib, repatriantlara Ombudsmanın fəaliyyəti, ona müraciət imkanları barədə məlumat verilib. Repatriantların hüquqlarının təmin olunmasına dair Ombudsmana ünvanlanan müraciətlər üzrə görülmüş tədbirlər nəticəsində uşaqlara doğum haqqında şəhadətnamələrin verilməsi, onların sosial yardımla təmin edilməsi, psixoloji dəstək xidmətlərinin göstərilməsi və digər bu kimi məsələlər təmin edilib. Cari ildə də tərəfimizdən repatriantların hüquqlarının müdafiəsi istiqamətində zəruri işlər davam etdiriləcək. ■